1. İqtisadi fikirərin yaranmasının zəruruliyini əsaslandırın, məqsəd və vəzifələrini göstərin.

İqtisadi fikirlər iqtisadi həyatda baş verən qanunauyğunluqların öyrənilməsini əsaslandırır. İqtisadiyyatdakı dəyişikliklər, xüsusən istehsal, texnologiya və istehlak sahələrindəki yeniliklər yeni iqtisadi proseslərə səbəb olur. Qlobal iqtisadi problemlər, inteqrasiya və təhlükəsizlik məsələləri ölkələrin iqtisadiyyatlarına təsir göstərir. Eyni zamanda, yoxsulluğun aradan qaldırılması, insan potensialının inkişafı və qeyri-iqtisadi amillərin rolu iqtisadi elmin inkişafını təmin edir.

İqtisadi fikir fənni cəmiyyətin iqtisadi əsaslarını başa düşmək, iqtisadi təfəkkürü və dünyagörüşünü formalaşdırmağa kömək edir. İqtisadi təfəkkürü geniş olan insanlar iqtisadi çətinlikləri daha tez anlayır və onlara təsirli həllər təklif edirlər. İqtisadi fikrin ən qabaqcıl nailiyyətlərindən istifadə edərək qərar qəbul etmə və ölkənin iqtisadi siyasətini düzgün müəyyənləşdirmək mümkündür. İqtisadi fikirlərin öyrənilməsi yalnız iqtisadi dünyagörüşü üçün deyil, həm də irəli sürülmüş elmi ideyaların məntiqini mənimsəmək üçün vacibdir. Bu, yalnız keçmişə deyil, həm də bu gün və gələcək iqtisadi görüşlərə əsaslanır.

2. İqtisadi fikir tarixinin əsas nəzəriyyə və istiqamətlərini açıqlayın.

İqtisadi fikir tarixi iqtisad elminin tarixi inkişafını və nəzəri əsaslarını öyrənən sahədir. Bu sahə müxtəlif dövrlərdə yaranmış iqtisadi məktəbləri, cərəyanları və nəzəriyyələri araşdıraraq onların necə formalaşdığını və bir-birini necə əvəz etdiyini izah edir. İqtisadi nəzəriyyələr əvvəlcə təsərrüfat fəaliyyətinin, əmtəə-pul münasibətlərinin və sərvətlərin idarə olunması ehtiyacından yaranmışdır. Zamanla bu fikirlər cəmiyyətin sosial-iqtisadi quruluşu ilə bağlı ideoloji çalarlar qazanmışdır.

İqtisadi fikir tarixində klassik məktəbin nümayəndələri olan A.Smit və D.Rikardonun fikirləri mühüm yer tutur. Onlara görə, iqtisadi davranışlar insanın cəmiyyətdəki mövqeyi ilə müəyyən olunur. A.Smit hesab edirdi ki, şəxsi mənfəətin maksimallaşdırılması daha çox kapitalistlər üçün keçərlidir.

20-ci əsrin 20-30-cu illərində iqtisadi fikirdə dönüş yaranmış, müasir istiqamətlər – Keynesçilik, neoliberalizm və institusionalizm formalaşmışdır. Keynesçilik dövlətin iqtisadiyyatda fəal rolunu müdafiə edir, neoliberalizm isə bazar azadlığını önə çəkir.

İqtisadi fikir tarixinin əsas vəzifəsi iqtisadi sistemlərin yaranmasını, inkişafını və bir-birini əvəz etmə prosesini izah etmək, bu dəyişikliklərə səbəb olan nəzəriyyələri və yanaşmaları təhlil etməkdir. Bu sahə iqtisad elmini dərindən anlamaq və onun təkamülünü başa düşmək üçün mühüm rol oynayır.

3. Qədim Hindistanın iqtisadi fikirlərinin “Artaxaşastr” traktatı əsasında izah edin.

Qədim Hindistanın iqtisadi fikirlərini öyrənərkən, ən önəmli mənbələrdən biri Kautilya tərəfindən yazılmış "Artaşastra" traktatıdır. Bu əsər dövlət idarəçiliyi, iqtisadiyyat və sosial strukturlar haqqında geniş məlumat təqdim edir.

"Artaşastra"da dövlətin iqtisadiyyata müdaxiləsi əhəmiyyətli yer tutur. Dövlət, bazarların tənzimlənməsi, qiymətlərin nəzarətdə saxlanması və ədalətli ticarətin təmin olunmasında fəal iştirak edirdi. Həmçinin, dövlətin ticarət və sənaye fəaliyyətlərini dəstəkləməsi, ticarət yollarının təhlükəsizliyini təmin etməsi və vergi siyasətini düzgün qurması da önəmli idi.

Əmək və istehsalın təşkili də "Artaşastra"da mühüm yer tuturdu. Əmək bölgüsü və istehsalın səmərəli şəkildə idarə edilməsi məqsədilə siyasətlər həyata keçirilirdi. Torpaq mülkiyyəti və kənd təsərrüfatının idarə olunması da iqtisadiyyatın əsasını təşkil edirdi, suvarma sistemlərinin qurulması və kəndlilərin rifahının artırılması üçün tədbirlər görülürdü.

Vergi sistemi isə ədalətli və səmərəli şəkildə qurulmuş, əldə olunan gəlirlər dövlətin əsas maliyyə mənbəyi olaraq ictimai layihələrin maliyyələşdirilməsinə yönəlmişdi.

Beləliklə, "Artaşastra" qədim Hindistanın iqtisadi fikrini formalaşdıran və dövrün sosial-iqtisadi şəraitini əks etdirən mühüm bir əsərdir.

4. Qədim şərq dövlətlərinin (Misir, Babilistan) ilkin iqtisadi fikirləri haqqında məlumat verin.

Qədim Şərq dövlətlərinin, xüsusən Misir və Babilistanın iqtisadi fikirləri, dövrün sosial və iqtisadi strukturunu əks etdirirdi.

Misirdə iqtisadiyyat əsasən kənd təsərrüfatına, xüsusilə Nil çayının suvarma sistemləri vasitəsilə həyata keçirilən əkinçiliyə dayanırdı. Dövlət, əkinçilərin işlədiyi torpaqları nəzarətdə saxlayır və vergi sistemləri vasitəsilə gəlirləri toplayırdı. İqtisadi fəlsəfədə iqtisadiyyatın əsas məqsədi ərzaq təminatının davamlılığını və xalqın rifahını təmin etmək idi. Dövlətin ticarət və sənaye üzərində də nəzarəti vardı, hansı ki, müxtəlif məhsulların qiymətlərini müəyyən edirdi və xarici ticarət əlaqələri ilə iqtisadiyyatın inkişafını təmin edirdi.

Babilistanda isə iqtisadiyyatın əsasını ticarət, sənaye və kənd təsərrüfatı təşkil edirdi. Babil hökmdarları iqtisadi fəaliyyətləri tənzimləyən qanunlar tətbiq edərək, əhalinin həyatını asanlaşdırmaq məqsədi güdürdülər. Hammurabi qanunları, ticarət, əmək haqqı və kreditlər kimi sahələrdə iqtisadi sabitliyi qorumağa yönəlmişdi. Babilistanın iqtisadi fəaliyyəti , əkinçilikdən daha çox şəhər təsərrüfatına yönəlmişdi və ticarət mübadiləsi mühüm rol oynayırdı.

Bu iki dövlətin iqtisadi fikirləri, onların sosial strukturlarınıı və idarəetmə prinsiplərini əks etdirərək dövrün iqtisadi inkişafına töhfə verirdi.

5. Qədim Çin iqtisadi təlimində (“Təbii hüquq”, “Kuan-Tsızı” traktatı) sosial-iqtisadi baxışlarını izah edin.

Qədim Çin iqtisadi fikri, xüsusilə Konfutsi tərəfindən yazılmış Təbii hüquq və “Quan Tsızı” traktatında ifadə olunan sosial-iqtisadi baxışlarla formalaşmışdır. Konfutsinin ideyaları Çin mədəniyyətinə və dövlətinə böyük təsir göstərmişdir. Onun əxlaqi və etik normaları, Çin cəmiyyətinin əsas prinsiplərini təşkil etmiş, bu ideyalar hələ də Şərq mədəniyyətində mühüm yer tutmaqdadır.

Konfutsi, dövlətin idarə edilməsinin yüksək mənəvi prinsiplər əsasında olmalı olduğunu vurğulamış, dövlət başçısını xalqın “atası” kimi təqdim etmişdir. O, dövlət başçısından, sərvəti bərabər bölüşdürmək, vergi yükünü yüngülləşdirmək və xalqın rifahını artırmaq kimi vəzifələri yerinə yetirməyi tələb edirdi.

“Quan Tsızı” traktatında iqtisadiyyatın dövlət tənzimlənməsi və iqtisadi sabitliyin təmin edilməsi məsələləri ətraflı şəkildə müzakirə edilmişdir. Traktatda sərvətin bərabər bölgüsü, əmtəə qiymətlərinin tənzimlənməsi və natural təsərrüfatın qorunması əsas mövzulardandır. Bu dövrdə həmçinin pul emissiyasının tənzimlənməsi təklif edilirdi.

Konfutsinin fikrincə, sərvətin artırılması üçün xalqın çox işləməsi və az istehlak etməsi vacibdir. O, insanların təbii hüquqlarına hörmət edərək, hər kəsin iş və əməyinin qarşılığında düzgün və ədalətli davranılmasını təmin etməyə çağırırdı.

6. Antik Yunanıstanda Ksenefon, Platon və Aristotelin iqtisadi baxışlarını izah edin.

Antik Yunanıstanda iqtisadi fikir Ksenofont, Platon və Aristotelin əsərləri ilə inkişaf etmişdir. Ksenofont “Ev təsərrüfatı” əsərində əmək bölgüsünün və kənd təsərrüfatının əhəmiyyətini vurğulamışdır. O, həmçinin ticarətin faydalı olduğunu, lakin əsas diqqətini kənd təsərrüfatına yönəltməli olduğumuzu qeyd etmişdir. Ksenofont, quldarlıq və əkinçilik arasında əlaqəni göstərmiş, qulu sadəcə işçi gücü kimi təqdim etmişdir.

Platon isə əsərlərində ideal dövlətin qurulmasına dair fikirlər irəli sürmüşdür. O, cəmiyyəti üç sinfə ayırmış və hər bir sinfin öz rolunu yerinə yetirməsini önə çəkmişdir. Platon mülkiyyəti kollektivləşdirərək, insanların təbii qabiliyyətlərinə görə pay almasını təklif etmişdir.

Aristotel əsərlərində, dövlətin məqsədinin ümumi rifahı təmin etmək olduğunu qeyd etmişdir. O, quldarlığı təbii saymış, amma bu təsərrüfat formasını iqtisadi zərurət kimi qiymətləndirmişdir. Aristotelə görə, sərvətin artırılması əsasən qulların əməyindən asılıdır və qulu, cəmiyyətin əsl işçisi kimi qiymətləndirmişdir. Ümumilikdə, bu üç mütəfəkkir Yunanıstanda iqtisadi fikrin formalaşmasında mühüm rol oynamış, iqtisadiyyatın əsas prinsiplərini müəyyən etmişdir.

7. Antik dövrdə Roma iqtisadiyyatındakı dəyişikliklərin iqtisadi fikir nümayəndələri tərəfindən izahını verin.

Antik dövrdə Roma iqtisadiyyatında baş verən dəyişikliklər, dövrün iqtisadi fikir nümayəndələri tərəfindən müxtəlif aspektlərdən təhlil edilmişdir. Bu dəyişikliklər əsasən kənd təsərrüfatı, ticarət və mülkiyyət münasibətlərindəki yeniliklərlə bağlı olmuşdur.

Varron, əsərində kənd təsərrüfatının əhəmiyyətini vurğulamış, əkinçiliklə yanaşı heyvandarlığın da inkişafına diqqət yetirmişdir. O, təsərrüfat fəaliyyətində şəxsi təşəbbüsün və fərdi mülkiyyətin rolunu qeyd etmişdir.

Kolumella əsərində kənd təsərrüfatının səmərəliliyini artırmaq üçün torpaq idarəçiliyi və əkinçilik texnikaları barədə praktiki tövsiyələr vermişdir. O, həmçinin qul əməyinin və azad işçilərin təsərrüfatdakı rolunu təhlil etmişdir.

Bu iqtisadi fikir nümayəndələri, Roma iqtisadiyyatındakı dəyişiklikləri nəzəri və praktiki cəhətdən təhlil edərək, kənd təsərrüfatı və ticarət sahələrindəki inkişafları izah etmişlər. Onların əsərləri, dövrün iqtisadi düşüncəsinin formalaşmasında və təsərrüfat fəaliyyətlərinin tənzimlənməsində mühüm rol oynamışdır.

8. Orta əsrin iqtisadi fikrini islamın təsiri və islam elmi sistemi haqqında izahat verin.

Orta əsrlərdə İslamın iqtisadi fikri mühüm rol oynamışdır. Şərq filosofları, xüsusən Əl Fərabi, İbn Sina, İbn Həldun və Nəsirəddin Tusi, iqtisadi məsələlərə dair vacib fikirlər irəli sürmüşlər. İslamda sərvətlərin ədalətli bölüşdürülməsi, mülkiyyətin qorunması və israfçılıqdan uzaq durulması prinsipləri vurğulanmışdır. Quranda və hədislərdə insanların mülk münasibətlərinə dair ədalət və bərabərlik prinsipləri mövcuddur. Bu prinsiplər fərdi və cəmiyyət səviyyəsində tətbiq olunmalı idi. İslamda iqtisadi bərabərlik, yoxsullara və qohum-əqrabaya kömək etmək və zəkat vermək təşviq olunurdu.

İslamda təbii sərvətlərin bütün insanlara məxsus olduğu bildirilir. Sərvətlərdən düzgün və yalnız ehtiyaca görə istifadə etmək vacib sayılırdı. Ehtiyacdan artıq olan mal və sərvətləri başqalarına vermək, xüsusilə yoxsullara və qonaqlara yardım etmək vacib idi. Bu prinsiplər iqtisadi bərabərlik və ədalətə əsaslanan bir cəmiyyətin formalaşmasına kömək etmişdir. İslam iqtisadiyyatı, könüllü olaraq ehtiyacdan artıq olanı vermək və israfçılıqdan qaçınma prinsiplərinə əsaslanırdı.

10. N.Tusinin “Əxlaqi-Nasir” və “Maliyyə haqqında traktat” əsərlərindəki iqtisadi fikirlər haqqında məlumat verin.

Nəsirəddin Tusi öz əsərlərində sosial-iqtisadi fikirlərini ifadə etmişdir. O, ölkə idarəçiliyinidə və cəmiyyətdə ədalətin təmin olunmasını əhəmiyyətli hesab edirdi. Tusi, hər kəsin öz işini görməsinin

vacib olduğunu, əmək bölgüsünün düzgün təşkilinin cəmiyyətin inkişafı üçün əsas olduğunu vurğulamışdır. Bu idarəetmə sistemini o, "siyasət" adlandırmışdır və siyasətin xalqın rifahını artırmağa xidmət etməsini müdafiə edirdi.

Tusi, maliyyə və vergi məsələlərinə də xüsusi diqqət yetirmişdir. O, dövlətin sərvətinin xalqın sərvətinə əsaslanmasını, vergi yükünün azaldılmasını və vergi sisteminin ədalətli olmasını təklif edirdi. Onun fikrincə, vergi dərəcələri əkinçinin torpağının münbitliyinə və məhsuldarlığına, həmçinin onun ödəmə qabiliyyətinə görə müəyyən edilməlidir. Əkin üçün əlverişli olmayan torpaqlardan vergi tutulmamalıdır. Tusi, vergi subyektləri kimi əkinçiləri, tacirləri və heyvandarlığı nəzərdə tuturdu. Tacirlərin daha çox vergi ödəməsini, amma sənətkarlardan az vergi alınmasını irəli sürmüşdür.

11. İbn-Həldunun “Müqəddimə” əsərindəki sosial-iqtisadi baxışları haqqında məlumat verin.

İbn-Həldun "Müqəddimə" əsərində cəmiyyətin sosial-iqtisadi inkişafını təbii bir proses kimi nəzərdən keçirmişdir. O, cəmiyyətin yaranmasını və inkişafını iqtisadi səbəblərdən izah etmiş, insanın ehtiyaclarını ödəmək üçün birgə əmək və istehsalın vacibliyini vurğulamışdır. İbn-Həldun, iqlim və təbii şəraitlərin cəmiyyətin inkişafına təsir etdiyini qeyd etmiş və cəmiyyətin iqtisadi fəaliyyətinin əsasını insanların iqtisadi ehtiyaclarını ödəməkdə görmüşdür.

İbn-Həldun iqtisadiyyatın bir neçə əsas məsələsinə toxunmuşdur. O, ticarət azadlığını müdafiə etmiş, dövlətin ticarətlə məşğul olmasını və inhisarçılığı qəti şəkildə tənqid etmişdir. İbn-Həldun, dövlətin ticarətə müdaxiləsini zərərli hesab edir və bunun sosial nizamı pozacağını qeyd edir.

Vergi siyasətinə də tənqidi yanaşan İbn-Həldun, vergi yükünün artırılmasının iqtisadiyyata zərər verəcəyini vurğulamışdır. Onun fikrincə, vergi yükü artdıqca istehsal azalır, əhali işləmək istəyindən imtina edir və bu da iqtisadi tənəzzülə səbəb olur. O, vergi yükünün azaldılmasını daha faydalı sayır, çünki bunun nəticəsində cəmiyyətin iqtisadi fəaliyyətinin canlanacağına inanır.

İbn-Həldun, iqtisadiyyatın tənəzzülünün qarşısını almaq üçün vergi siyasətinin ədalətli və balanslı olmasını tövsiyə edir, dövlətin müdaxiləsini minimuma endirməyi vurğulayır.

12. Sxolastika anlayışının məzmununu izah edin və sxolastik düşüncənin mərhələlərini açıqlayın.

Sxolastika orta əsrlərdə yaranan dini fəlsəfə növüdür. Yunanca “elmi söhbət”, “məktəb” mənasını verir. Sxolastikanın əsas məqsədi xristian dinini elmi dillə izah etmək və qaydaya salmaq idi. Sxolastlar antik dövr filosoflarının, xüsusilə Platon və Aristotelin fikirlərindən istifadə edirdilər. Bu fəlsəfənin əsas xüsusiyyətləri teologiyaya (ilahiyyata) üstünlük verilməsi, dini fikirlərin ağılla izahı və məntiqə əsaslanan mübahisələrə diqqət yetirilməsidir. Sxolastika əsasən Qərbi Avropada inkişaf etmişdir.

Sxolastik düşüncə dörd mərhələyə bölünür:

1. Erkən sxolastika Bu dövrdə sxolastikaya neoplatonizmin təsiri olmuşdur. Neoplatonizm Platon və Aristotelin fəlsəfəsini Şərq inancları ilə birləşdirən cərəyan idi. Bu mərhələdə din və fəlsəfə arasında ilk əlaqələr qurulmağa başlanmışdır.

2. Orta və ya klassik sxolastika (1200–1300): Sxolastikanın inkişaf etdiyi və Aristotelin fikirlərinə əsaslanan xristian fəlsəfəsinin formalaşdığı dövrdür. Bu dövrdə Böyük Albert və onun kimi filosoflar ön plana çıxmışdır.

3. Son sxolastika (1300–1500): Bu dövrdə katolik və protestant ilahiyyatçıları arasında fikir ayrılıqları yaranmış, Reformasiya hərəkatı başlayaraq sxolastikaya qarşı çıxışlar olmuşdur. Kilsə bu dövrdə öz mövqeyini qorumağa çalışmışdır.

4. Müasir sxolastika (19-cu əsrdən sonra): Yeni fəlsəfi cərəyanların təsiri ilə sxolastika əvvəlki təsirini itirməyə başlasa da, bəzi katolik və protestant dairələrdə ona maraq davam etmişdir.

Beləliklə, sxolastika dinlə fəlsəfənin birləşdirilməsinə yönəlmiş bir məktəb olmuş, uzun müddət Qərbi fəlsəfə tarixində mühüm rol oynamışdır.

13. Maks Veberin idarəçilik formalarını sadalayın və onların izahını verin.

Maks Veber idarəetmənin müxtəlif formalarını təhlil edərək bu sahədə mühüm töhfələr vermişdir. O, idarəetməni ənənəvi, karizmatik və bürokratik kimi üç əsas formaya ayırmışdır.

Ənənəvi idarəetmə forması mövcud adət-ənənələrə əsaslanır. Burada rəhbərlik ənənəvi olaraq müəyyən edilir və insanlar bu rəhbərlərə itaət edirlər. Bu formaya monarxiya və feodal cəmiyyətlər nümunə ola bilər.

Karizmatik idarəetmə forması liderin şəxsi cazibəsinə əsaslanır. Bu liderlər, insanları öz şəxsi təsiri ilə idarə edir və onların inamını qazanırlar. Bu tip idarəetmə, inqilabi və dəyişiklik yaratmağa çalışan liderlər tərəfindən tətbiq edilir.

Bürokratik idarəetmə isə rəsmi qaydalara və strukturlara əsaslanır. Bu sistemdə hər bir işçinin vəzifələri aydın şəkildə müəyyən edilir və müəyyən prosedurlara riayət olunur. Bürokratik idarəetmə forması ən çox müasir dövlət və təşkilatlarda tətbiq olunur.

14. Qərbi Avropanın iqtisadi fikrində Kanonistlər məktəbi haqqında məlumat verin və onların əsas iqtisadi ideyalarının izahını verin.

Kanonistlər məktəbi Orta əsrlərdə Qərbi Avropada formalaşmış iqtisadi fikir məktəbidir və əsasən kilsə hüquqşünasları tərəfindən inkişaf etdirilmişdir. Bu məktəbin nümayəndələri iqtisadi məsələlərə hüquqi və əxlaqi tərəfdən yanaşırdılar. Kanonistlərin əsas ideyalarından biri "ədalətli qiymət" anlayışıdır. Bu anlayış müxtəlif cür izah olunmuşdur. Kanonist nümayəndələr ədalətli qiyməti istehsal xərcləri ilə əlaqələndirirdi. Bəziləri isə bazarda formalaşan qiymətin ədalətli ola biləcəyini bildirmiş, lakin bu qiymətin həm də cəmiyyətin sosial tarazlığını təmin etməsini vacib hesab etmişdir. Qiymətin yalnız istehsal xərcləri ilə deyil, həm də insanların ehtiyacları və sosial vəziyyəti ilə uyğun olmalı olduğunu qeyd etmişdir.

Kanonistlər dəyərin əsas mənbəyi kimi faydalılığı və nadirliyi göstərirdilər. Akvinski nemətlərin dəyərini onların insan tələbatını ödəmək qabiliyyəti ilə ölçürdü. Bu yanaşmalar sonrakı dövrlərdə yaranan iqtisadi nəzəriyyələrin əsasını qoymuşdur və iqtisadi düşüncənin inkişafına böyük təsir göstərmişdir.

15. Merkantilizmin yaranmasının sosial-iqtisadi ilkin şərtləini açıqlayın, onun əsas ideya və prinsiplərini izah edin.

Merkantilizm iqtisadi nəzəriyyənin ilk sistemli formasıdır. Ondan əvvəl iqtisadi fəaliyyət ayrıca bir sahə kimi qəbul olunmurdu. Merkantilizm ilk dəfə iqtisadi hadisələri və qanunauyğunluqları elmi şəkildə izah etməyə başlamışdı. Bu nəzəriyyə kapitalizmin ilkin dövründə yaranıb və ticarətə əsaslanan bazar iqtisadiyyatının əsaslarını qoymuşdur.

Merkantilizmin yaranmasına səbəb olan sosial-iqtisadi şərtlərə bunlar daxildir: böyük coğrafi kəşflər, ilkin kapital yığımı, əmtəə-pul münasibətlərinin inkişafı, milli bankların və dünya bazarının yaranması, beynəlxalq ticarətin genişlənməsi.

Merkantilistlərin əsas ideyaları bunlardır:

- Sərvət qızıl və gümüşlə ölçülür.
- Dövlətin gücü qiymətli metalların yığılması ilə artır.
- Xarici ticarət mütləq nəzarətdə olmalıdır.
- Ucuz xammal idxal edilməli, hazır məhsul ixracı artırılmalıdır.
- İdxal olunan sənaye məhsullarına yüksək vergi qoyulmalıdır.

- Əmək haqqı aşağı səviyyədə saxlanmalı, əhali çoxalmalıdır.

Bu ideyalar o dövrün tələblərinə uyğun idi və iqtisadi inkişafda mühüm rol oynayıb. Merkantilizm həm nəzəriyyə, həm də iqtisadi siyasət kimi formalaşmış və müasir iqtisadiyyatda da bəzi prinsipləri hələ də istifadə olunur.

16. Merkantilizmin inkişafında iki mərhələ “monetar” və “ticarıt balansı” nəzəriyyəsinin izahını verin.

Merkantilizm iqtisadi nəzəriyyənin ilk sistemli formasıdır. Ondan əvvəl iqtisadi fəaliyyət ayrıca bir sahə kimi qəbul olunmurdu. Merkantilizm ilk dəfə iqtisadi hadisələri və qanunauyğunluqları elmi şəkildə izah etməyə başlamışdı.

Merkantilizmin inkişafı iki mərhələyə bölünür: monetar və ticarət balansı nəzəriyyəsi.

İlk mərhələ olan monetar merkantilizm dövründə sərvət yalnız pul – xüsusilə də qızıl və gümüşlə ölçülürdü. Bu mərhələdə əsas məqsəd ölkəyə mümkün qədər çox pul gətirmək və onu ölkədə saxlamaq idi. Merkantilistlər hesab edirdilər ki, həm fərd, həm də dövlət az xərcləyib çox yığmalıdır. Pul sərvətin əsas göstəricisi sayılırdı. Bu səbəbdən xaricdən mal alışı azaldılır, qızıl və gümüşün ölkədən çıxarılması qadağan edilirdi.

İkinci mərhələ olan ticarət balansı nəzəriyyəsi dövründə merkantilistlər pulun iqtisadiyyatda dövr etməsinin vacib olduğunu anladılar. Bu mərhələdə əsas ideya ölkənin aktiv ticarət balansına nail olması idi. Yəni ölkə daha çox mal ixrac edib, daha az mal idxal etməliydi ki, ölkəyə daha çox pul daxil olsun. Bunun üçün dövlət proteksionist siyasət yürüdür, yerli sənayeni qoruyur, xarici mallara gömrük vergiləri qoyur və ixracı dəstəkləyirdi.

Beləliklə, ilk mərhələ yığım, ikinci mərhələ isə ticarət və dövlət müdaxiləsi ilə xarici ticarətin inkişafı üzərində qurulmuşdu.

18. U.Pettinin iqtisad elminin tədqiqat predmeti və metodu haqqında etdiyi yeniliyin izahını verin.

U. Petti İngiltərədə klassik iqtisad məktəbinin əsasını qoymuş ilk iqtisadçılardan biridir. O, iqtisad elminin mövzusunu dəyişərək, ticarət deyil, istehsala diqqət yetirmişdir. Merkantilistlərdən fərqli olaraq Petti iqtisadi hadisələri yalnız səthi yox, daha dərindən – yəni mahiyyəti baxımından araşdırmağa çalışmışdır. Onun fikrincə, iqtisadi qanunlar təbiət qanunları kimi sabit və ümumi xarakter daşıyır.

Petti iqtisadiyyatda ilk dəfə elmi abstraksiya və statistik üsullardan istifadə etmişdir. O, hadisələri

ölçməyə, rəqəmlərlə ifadə etməyə çalışmış və bu baxımdan statistikaya da töhfə vermişdir. Bu səbəbdən Karl Marks onu “siyasi iqtisadın atası” və “statistikanın ixtiraçısı” adlandırmışdır. Beləliklə, U. Petti iqtisadiyyata həm mövzu, həm də metod baxımından yenilik gətirmişdir.

19. U.Pettinin təlimində məhsuldar əmək, əmək haqqı, renta və faiz haqqında fikirlərinin açıqlayın və pul sonsepsiyasını əsaslandırın.

U. Petti klassik iqtisadiyyatın əsasını qoyan ilk iqtisadçılardan biri olmuşdur. Onun təlimində məhsuldar əmək, əmək haqqı, renta, faiz və pul anlayışları mühüm yer tutur. Pettiyə görə, əmtəələrin dəyəri onların istehsalı zamanı sərf olunan əməyə əsaslanır. Yəni, dəyərin mənbəyi əməkdir. O, işçinin əmək haqqını isə onun yaşaması üçün lazım olan minimum xərclərlə izah etmişdir. Bu yanaşmaya görə, işçi yalnız özünü və ailəsini dolandıracaq qədər gəlir əldə etməlidir.

Petti renta məsələsinə də toxunmuş və torpaq rentasının torpağın münbitliyinə və bazara yaxınlığına görə dəyişdiyini bildirmişdir. Ona görə, məhsuldar və bazara yaxın torpaqlar daha çox renta gətirir.

Petti deyirdi ki, faiz dərəcəsi bazarda olan pulun miqdarına görə təbii olaraq formalaşmalıdır. Dövlət bu sahəyə qarışmamalıdır. Dövlətin bu sahəyə müdaxilə etməsini düzgün hesab etməmişdir.

Petti ilk dəfə milli gəlir anlayışını da formalaşdırmağa çalışmış və onu ölkədəki əhalinin istehlak xərcləri ilə ölçmüşdür. Amma yığım və investisiyaları bu hesaba daxil etməyib. Vergi məsələsinə gəldikdə isə, Petti yalnız torpaq sahiblərinin deyil, həm də həmin torpaqda yetişən məhsulu alanların da vergi ödəməli olduğunu bildirmişdir.

Beləliklə, U. Petti iqtisadiyyatda bir çox əsas anlayışların izahını vermiş və sonrakı dövrün iqtisadçılarına böyük təsir göstərmişdir.

20. P.Buagilberin sosial-iqtisadi baxışlarının formalaşması şəraiti haqqında məlumat verin və xüsusiyyətlərini açıqlayın.

Pyer Buagilberin sosial-iqtisadi fikirləri Fransada siyasi qeyri-sabitlik və iqtisadi tənəzzül dövründə formalaşmışdır. Bu dövrdə xalqın rifah səviyyəsi aşağı idi, vergilər çox, iqtisadiyyat isə zəif inkişaf edirdi. Belə bir şərait Buagilberi iqtisadi islahatların vacibliyi barədə düşünməyə vadar etmişdir.

O, Fransada klassik iqtisadın əsasını qoymuş və əmək dəyər nəzəriyyəsini irəli sürmüşdür. Onun fikrincə, əmtəənin dəyəri ona sərf olunan əməyə əsaslanır. Buagilber “həqiqi qiymət” anlayışını irəli sürərək göstərirdi ki, bazardakı dəyişkən qiymətlərin arxasında sabit və real bir dəyər durur – bu da əməklə ölçülür.

Buagilber hesab edirdi ki, sərbəst bazar şəraitində əmtəələr öz həqiqi dəyərini tapacaq və iqtisadi inkişaf baş verəcək. O, istehlakın artmasını iqtisadi inkişafın əsas şərti sayırdı. Əgər kasıbların gəliri artsa, onlar daha çox məhsul alar və bu, istehsalı da artırar. Əksinə, gəlirin yalnız varlıların əlində toplanması durğunluğa səbəb ola bilər.

Buagilberin baxışları sonrakı klassik iqtisadçılar üçün də əsaslı zəmin yaratmışdır.

21. Fiziokratlar məktəbinin tarixi şəraiti haqqında məlumat verin və tədqiqat obyetklərin göstərin.

Fiziokratlar məktəbi XVIII əsrin ortalarında Fransada yaranmış və iqtisadi düşüncənin inkişafında mühüm yer tutmuşdur. Bu məktəb, kənd təsərrüfatını iqtisadi inkişafın əsas sahəsi kimi görmüşdür. O dövrdə Fransada feodalizm, ağır vergilər və aşağı məhsuldarlıq mövcud idi, sənaye isə zəif inkişaf etmişdi. Fiziokratlar, iqtisadi inkişafı yalnız kənd təsərrüfatı ilə əlaqələndirərək, bu sahənin izafi məhsul yaratdığını və bütün iqtisadi inkişafın əsasını təşkil etdiyini müdafiə edirdilər.

Onlar, kənd təsərrüfatı sahəsində sərbəst bazar və azad rəqabət prinsiplərinə üstünlük verirdilər və dövlətin iqtisadiyyata müdaxiləsini rədd edirdilər. Fiziokratların nəzəriyyəsinə görə, yalnız kənd təsərrüfatında yaranan sərvət ölkənin inkişafına yol açırdı, sənayeni isə məhsuldar sahə kimi qəbul etmirdilər. Merkantilistlərin iqtisadi müdaxilələrinə qarşı mübarizə aparan fiziokratlar, iqtisadi irəliləyişlər və azad ticarət prinsiplərinə əsaslanırdılar. Bu ideyalar Fransada kənd təsərrüfatı sektorunun inkişafını və iqtisadi islahatları təşviq etmişdir.

22. Fiziokratların “xalis məhsul” ideyasınnın məzmununu açıqlayın və xalis məhsulun siniflər arasında bölgüsünü izah edin.

Fiziokratlar məktəbi XVIII əsrin ortalarında Fransada yaranmış və iqtisadi düşüncənin inkişafında mühüm yer tutmuşdur. Bu məktəb, kənd təsərrüfatını iqtisadi inkişafın əsas sahəsi kimi görmüşdür

Fiziokratların “xalis məhsul” ideyasına görə, əlavə sərvət yalnız kənd təsərrüfatında yaranır. Onların fikrincə, əkinçilik torpaqdan artıq məhsul verir və bu əlavə məhsul – “xalis məhsul” – millətin əsas gəlir mənbəyidir. F.Kene bu fikrin əsas nümayəndəsi olub və bildirirdi ki, sənaye sahələri yalnız mövcud məhsulu emal edir, amma yeni sərvət yaratmır.

Fiziokratlara görə, cəmiyyət üç əsas sinifə bölünür:

1. İstehsalçı sinif – kəndlilər və əkinçilər. Onlar torpaqda işləyərək xalis məhsul yaradırlar.

2. Əmlak sahibi sinif – torpaq sahibləri. Onlar xalis məhsuldan renta şəklində pay alırlar.

3. səmərəsiz sinif – sənaye və xidmət sahələrində çalışanlar. Onlar məhsul yaratmır, yalnız istehlak edirlər.

Bu bölgüyə əsasən, yalnız kənd təsərrüfatı real sərvət yaradır, digərləri isə həmin sərvəti bölüşdürür və ya istifadə edir. Fiziokratların bu yanaşması kənd təsərrüfatına böyük üstünlük verməklə iqtisadiyyatın əsasını torpaq və təbiətlə əlaqələndirirdi.

23. F.Kenenin “iqtisadi cədvəlində” natura və dəyər şəkilində təkrar istehsalın hərəkət modelinin təhlilini verin və tədavül aktlarını izah edin.

F.Kene "İqtisadi Cədvəl" əsərində təkrar istehsal prosesini üç sinif arasında bölüşdürür: məhsuldar sinif (kəndlilər və fermerlər), mülkiyyətçi sinif (torpaq sahibləri) və səmərəsiz sinif (sənaye işçiləri və alverçilər). Onun nəzəriyyəsinə görə, xalis məhsul yalnız kənd təsərrüfatında yaradılır.

Natura formasında təkrar istehsal – kəndlilər torpaqdan əldə etdikləri məhsulları bir hissəsini istehlak üçün, qalan hissəsini isə digər siniflərə verir. Torpaq sahibləri öz paylarını aldıqları məhsullarla təmin olunurlar. Səmərəsiz sinif isə kənd təsərrüfatı məhsullarını alaraq öz istehlakını təmin edir, əvəzində sənaye məhsulları təqdim edir.

Dəyər formasında təkrar istehsal – bu dövriyyə pul vasitəsilə baş verir. Torpaq sahibləri kəndlilərdən ərzaq alaraq onlara pul verir, kəndlilər bu pulla sənaye malları alır və səmərəsiz sinfə pul ötürür. Səmərəsiz sinif isə həmin pulu torpaq sahiblərinə müxtəlif xidmətlər və mallar qarşılığında qaytarır. Beləliklə, pul dövranı vasitəsilə istehsal təkrar olunur.

Tədavül aktları – bu modeldə malların və pulların hərəkəti siniflər arasında qarşılıqlı mübadilə şəklində gedir. Əsas məqsəd, hər sinfin istehlakını təmin etməklə yanaşı, növbəti istehsal dövrünü başlatmaqdır. F. Kenenin bu modeli iqtisadi dövriyyəni sistemli şəkildə izah edən ilk ciddi təhlil idi və iqtisadiyyatın “canlı orqanizm” kimi işlədiyini göstərirdi.

24. A.Tyurqonun kapital haqqında fikirlərini izah edin və kapitalın tətbiqi üsullarını göstərin.

Tyurqo tərəfindən cəmiyyətin siniflərə bölgüsünü izahını verin.

Tyürqo, Fiziokratlar məktəbinin inkişafında mühüm rol oynamış və iqtisadiyyatın əsas prinsiplərini inkişaf etdirən bir iqtisadçıdır. Onun fikirlərində kapitalın tətbiqi və cəmiyyətin siniflərə

bölünməsi əsas mövzular sırasındadır. A. Tyurqo kapitalı iqtisadiyyatın hərəkətverici qüvvəsi hesab edirdi. Onun fikrincə, kapital iki əsas sahədə tətbiq olunur: birincisi, torpağa sərf olunur və bu zaman kapital torpaqdan gəlir əldə etmək üçün istifadə edilir; ikincisi isə sənaye və istehsalata yönəldilir. Hər iki halda kapitalın məqsədi gəlir qazanmaqdır. Tyurqo düşünürdü ki, kapitalist yalnız öz bilik və bacarığı ilə riskə gedərək gəlir əldə edə bilər. Əgər bu şərtlər ödənilməzsə, kapitalist uğur qazana bilməz.

Tyurqo cəmiyyəti üç əsas sinfə ayırırdı.

Məhsuldar sinif – kənd təsərrüfatı və sənətkarlıqla məşğul olub real dəyər yaradanlardır.

Əmək haqqı alan sinif – müxtəlif sahələrdə çalışan və əmək müqabilində gəlir əldə edənlərdir.

Sərbəst sinif isə torpaq sahibləri və kapitalistlərdən ibarətdir, onlar istehsala birbaşa qatılmasalar da, gəlir əldə edirlər.

Tyurqo həmçinin pulun rolunu da vurğulayırdı – onun fikrincə, pul əmtəələrin dəyərini ölçmək və müqayisə etmək üçün bir vasitədir. Onun bu fikirləri fiziokratların nəzəriyyəsini inkişaf etdirmiş və iqtisadi fikrin formalaşmasına töhfə vermişdir.

25. Klassik iqtisad elminin yaranmasının tarixi şəraitini açıqlayın və formalaşması mərhələlərini göstərin.

Klassik iqtisad elminin yaranması XVII əsrin sonu və XVIII əsrin əvvəllərində baş vermişdir. Bu dövr, feodalizmin dağılması və kapitalist münasibətlərinin inkişafı ilə bağlıdır. Ticarət və sənaye sahələrindəki dəyişikliklər klassik iqtisadi məktəbin əsasını qoymuşdur.

Klassik iqtisad məktəbi üç mərhələdən keçmişdir. İlk mərhələ merkantilizmə qarşı klassik nəzəriyyənin əsaslarının formalaşması ilə başlamışdır. U. Petti və P. Buagilber bu dövrün nüfuzlu iqtisadçılarıdır. İkinci mərhələdə A. Smitin "Xalqlar sərvəti" əsəri ilə klassik iqtisadiyyat tam formalaşmışdır. Bu dövrdə sərbəst bazar və azad rəqabət prinsipləri güclənmişdir. Üçüncü mərhələdə klassik iqtisadi nəzəriyyənin tənqidi baş vermiş və bəzi prinsiplər təkmilləşdirilmişdir. Bu mərhələdə yeni iqtisadi düşüncələr meydana çıxmışdır.

Bu dövr iqtisadiyyatda əsaslı dəyişikliklərin baş verdiyi, bazar iqtisadiyyatının inkişaf etdiyi bir vaxtdır.

26. A.Smit təlimində maliyyə məsələrinə dair fikirlərin izah edin və vergiqoymanın prinsipləri haqqında məlumat verin.

A.Smit, iqtisadiyyatın təbii qanunlarla idarə olunduğunu vurğulamış və bazarın özünü tənzimləyən bir sistem olduğunu qeyd edib. O, dövlətin iqtisadiyyata müdaxiləsinin minimum olmasını və bazarın sərbəst işləməsini dəstəkləyib. Smitin "görünməyən əl" konsepsiyası, hər bir

fərdin öz maraqlarını güdməklə ümumi fayda yaratdığını izah edir.

Vergiqoyma məsələsində A.Smit müəyyən prinsiplər irəli sürüb. Vergilər, fərdlərin gəlir və maliyyə gücünə uyğun olaraq müəyyən edilməli, şəffaf və başa düşülən olmalıdır. Vergi toplanması məqsədli olmalı və dövlətin əsas xidmətlərinə yönəlməlidir. Həmçinin, vergilər sabit olmalı və tez-tez dəyişməməlidir.

A.Smitin təlimi, sərbəst bazar iqtisadiyyatının inkişafı və ədalətli vergi sisteminin qurulmasında əhəmiyyətli bir yanaşma təklif edir.

27. A.Smit təliminin yaranmasının tarixi şəraiti haqqnda məlumat verin, onun elmi sistemini və metodologiyasının xüsusiyyətlərini izah edin.

Adam Smitin təliminin yaranması XVIII əsrin ikinci yarısında İngiltərədə baş verən sosial- iqtisadi dəyişikliklərlə əlaqədar olub. Feodalizmin sona çatması, sənaye inqilabının başlanğıcı və kapitalist iqtisadiyyatının inkişafı şəraitində Smit, iqtisadiyyatın təbii qanunlarla tənzimlənən bir sistem olduğunu müdafiə edirdi. Onun əsas fikri "görünməz əl" prinsipidir, hansı ki, fərdi maraqların izlənməsi nəticəsində cəmiyyətin ümumi rifahı artır. Smitin nəzəriyyəsi, sərbəst bazar iqtisadiyyatının vacibliyini vurğulayan və dövlət müdaxiləsini minimuma endirən bir yanaşmadır.

Smitin metodologiyası analitik və empirik yanaşmalara əsaslanır. O, iqtisadi hadisələri təbii qanunlarla izah edərək cəmiyyətin inkişafını araşdırırdı. Bu yanaşma, iqtisadi proseslərin başa düşülməsində və tətbiqində mühüm yer tuturdu. Smitin təlimi, iqtisadiyyatı həm nəzəri, həm də praktik baxımdan birləşdirən bir sistem olmuşdur.

28. A.Smitin əmək bölgüsü, mübadilə, pul, məhsuldar əmək haqqında fikirlərini vəd yər nəzəriyyəsini izah edin.

Adam Smitin iqtisadi fikirləri əmək bölgüsü, mübadilə, pul, məhsuldar əmək və dəyər anlayışları üzərində qurulmuşdur. O, əmək bölgüsünü məhsuldarlığın və ümumi sərvətin artmasının əsas səbəbi hesab edirdi. İnsanlar müəyyən sahələr üzrə ixtisaslaşaraq bir-birinə möhtac olur və bu əmək bölgüsü nəticəsində mübadilə yaranır.

Smit mübadilənin əsas vasitəsi kimi pulu göstərir və onu iqtisadiyyatın dövriyyəsini təmin edən əsas vasitə adlandırır. Pul əmtəələrin asan dəyişdirilməsini təmin edir və iqtisadi prosesləri sürətləndirir.

Dəyər haqqında fikirlərində isə Smit qeyd edirdi ki, əmtəənin dəyəri onun istehsalına sərf olunan əməyə əsaslanır. Daha çox əmək tələb edən məhsul daha çox dəyərə malikdir.

Məhsuldar əmək anlayışına görə isə, yalnız gəlir və kapital gətirən əmək məhsuldar sayılır. Qeyri-məhsuldar əmək isə xidmət sahələrini əhatə edir və yeni dəyər yaratmır. Bu yanaşmalar Smitin iqtisadi sistemində mərkəzi yer tutur.

29. A.Smitin “Xalqlar sərvətinin təbiəti və səbəbləri” əsərinin tədqiqat predmeti haqqında məlumat verin.

Adam Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsəri iqtisadiyyat elminin əsasını qoyan mühüm əsərlərdən biridir. Əsərin əsas məqsədi xalqların sərvətinin necə yarandığını və bu sərvətin artmasının səbəblərini izah etməkdir. Smit bu əsərdə əmək bölgüsünün iqtisadi inkişafda oynadığı rolu, bazar münasibətlərini və məhsuldar əməyin əhəmiyyətini təhlil edir.

O, sərvətin artımını əmək məhsuldarlığı ilə əlaqələndirir və azad bazar şəraitində iqtisadiyyatın təbii qanunlarla inkişaf etdiyini göstərir. Əsərdə həmçinin mübadilə, pulun funksiyası və qiymətlərin formalaşması kimi məsələlər də geniş şəkildə izah olunur. Bu əsər iqtisadi düşüncənin formalaşmasında və sistemli yanaşmanın inkişafında mühüm rol oynamışdır.

30. A.Smitin elmi sistemində gəlirlərin-əmək haqqı, mənfəət, renta formaları haqqında məlumat verin.

Adam Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsəri, iqtisadiyyatın əsas prinsiplərini və mexanizmlərini əhatə edən fundamental bir əsərdir. Bu əsərdə Smit, əmək haqqı, mənfəət və renta kimi gəlir formalarını təhlil edərək, onların iqtisadiyyatda oynadığı rolları izah edir.

Əmək Haqqı: İşçilərin bacarıq və əmək qabiliyyətlərini sataraq qazandıqları gəlirdir. Əmək haqqı, işçinin təcrübəsi və bazardakı tələbatla müəyyən edilir.

Mənfəət: Kapitalistlər tərəfindən sərmayə qoyuluşu ilə əldə edilən gəlirdir. Mənfəət, risk və təşəbbüsə görə dəyişir və iqtisadi artımda mühüm rol oynayır.

Renta: Torpaq sahiblərinin torpaq üzərindəki mülkiyyət hüquqlarından qazandıqları gəlirdir. Renta, torpağın məhsuldarlığı və istifadəsinin səmərəliliyi ilə əlaqəlidir.

Bu gəlir formaları, iqtisadiyyatda sərvətin yaradılması və bölüşdürülməsi proseslərini təyin edən əsas amillərdir.

32. D.Rikardonun “Siyasi iqtisadın və vergiqoymanın əsasları” adlı əsərində pul tədavülü, kredit və vergi məsələləri haqqnda fikirlərini izah edin.

David Rikardo, 1817-ci ildə nəşr etdiyi "Siyasi iqtisadın və vergiqoymanın əsasları" əsərində pul tədavülü, kredit və vergi məsələlərini ətraflı şəkildə təhlil etmişdir. Onun bu sahələrə dair əsas fikirləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

Rikardo, pulun iqtisadiyyatda mübadilə vasitəsi olaraq rolunu vurğulamış və pul tədavülünün iqtisadi fəaliyyətə təsirini araşdırmışdır. O, kreditin iqtisadi inkişafda mühüm rol oynadığını qeyd etmiş, lakin kreditin həddindən artıq genişlənməsinin inflyasiyaya səbəb ola biləcəyini də bildirmişdir. Bu baxımdan, o, kreditin nəzarət altında saxlanmasının vacibliyini vurğulamışdır.

Vergi məsələlərinə gəldikdə isə, Rikardo vergi sistemlərinin ədalətli və effektiv olmasının vacibliyini qeyd etmişdir. O, vergi yükünün düzgün bölüşdürülməsinin sosial ədalət və iqtisadi sabitlik üçün əsas olduğunu vurğulamışdır. Eyni zamanda, vergi siyasətinin iqtisadi fəaliyyətləri təhrik etməli və istehsalın artımına töhfə verməlidir.

33. D.Rikardounun elmi sistemi haqqında məlumat verin və metodologiyasının xüsusiyyətlərini açıqlayın.

David Rikardo klassik iqtisad məktəbinin görkəmli nümayəndəsidir və onun elmi sistemi iqtisadi proseslərin məntiqi, sistemli və nəzəri təhlilinə əsaslanır. Rikardo deduktiv metoddan istifadə edərək, ümumi prinsiplərdən çıxış edir və iqtisadi hadisələri bu prinsiplərə əsasən izah edirdi.

Əsas nəzəriyyələrindən biri əmək-dəyər nəzəriyyəsidir. Bu yanaşmaya görə, əmtəənin dəyəri onun istehsalına sərf olunan əmək miqdarı ilə müəyyən olunur. Rikardo, həmçinin torpaq rentası, mənfəət və əmək haqqı kimi gəlir formalarının iqtisadi sistemdəki paylanmasını araşdırırdı. O, bu bölgünü torpağın məhsuldarlığı, kapitalın gəlirliliyi və əmək bazarındakı dəyişikliklər kontekstində izah edirdi.

Metodologiyasında sistemlilik və məntiqi ardıcıllıq əsas yer tutur. Rikardo empirik müşahidələrdən daha çox nəzəri nəticələrə əsaslanırdı və iqtisadi qanunların ümumi prinsiplərə uyğun qurulmasını vacib sayırdı.

34.D.Rikardonun bölgü nəzəriyyəsində renta, əmək haqqı və mənfəət nəzəriyyələrinin şərhini verin.

Devid Rikardo iqtisadi gəlirin üç əsas sinif arasında bölünməsini izah edən bölgü nəzəriyyəsi ilə tanınır. Bu siniflər torpaq sahibləri (renta alır), işçilər (əmək haqqı alır) və kapitalistlərdir (mənfəət əldə edir). Rikardoya görə, bu bölgü iqtisadi inkişafla dəyişə bilər.

Renta anlayışını o, torpaqların məhsuldarlıq fərqi ilə izah edir. Əvvəlcə məhsuldar torpaqlardan istifadə olunur, lakin əhali artdıqca daha az məhsuldar torpaqlara ehtiyac yaranır. Bu zaman məhsuldar torpaq sahibləri əlavə gəlir – renta – əldə edirlər. Renta torpağın özündən yox, məhsuldarlıq fərqindən yaranır.

Əmək haqqı isə Rikardoya görə yaşayış minimumu səviyyəsində sabit qalır. Əmək haqqı artdıqda əhali çoxalır, bu da əmək haqqının yenidən azalmasına səbəb olur. Əmək haqqı azaldıqda isə əhali azalır və maaşlar təkrar yüksəlir. Bu fikir Malthusun əhali nəzəriyyəsinə əsaslanır.

Mənfəət kapitalistlərin gəliridir və əmək haqqı ilə tərs mütənasibdir. Əmək haqqı artdıqca mənfəət azalır. Eyni zamanda renta artdıqca istehsal xərcləri yüksəlir və mənfəət daha da azalır. Rikardo düşünürdü ki, bu proses davam edərək iqtisadiyyatı durğunluq mərhələsinə gətirib çıxaracaq.

35.D.Rikardonun xarici ticarət siyasəti haqqında fikirlərini açıqlayın.

Rikardonun xarici ticarət nəzəriyyəsi nisbi üstünlük (comparative advantage) prinsipi üzərində qurulub. Bu prinsipə görə, bir ölkə hansısa məhsulu başqa ölkəyə nisbətən daha aşağı fürsət xərcilə (opportunity cost) istehsal edə bilirsə, həmin məhsulun istehsalına fokuslanmalı və digər məhsulu başqa ölkədən idxal etməlidir. Nisbi üstünlük fərziyyəsinin əsas məzmunu: Rikardo göstərmişdir ki, hətta bir ölkə hər iki məhsulu digər ölkədən daha səmərəli istehsal etsə belə, hər iki ölkə ixtisaslaşma və ticarət vasitəsilə qazanc əldə edə bilər. Bu ticarət mexanizmi ölkələrə resurslarını daha effektiv istifadə etməyə, ümumi istehsalı və rifahı artırmağa imkan verir. Rikardonun sərbəst ticarət yanaşması: Rikardo proteksionizmə qarşı idi və sərbəst (azad) ticarəti dəstəkləyirdi. Onun fikrincə:Gömrük tarifləri və idxal məhdudiyyətləri səmərəsizdir.Sərbəst ticarət ölkələrin qarşılıqlı fayda əldə etməsini təmin edir.İxtisaslaşma və ticarət dünya üzrə ümumi iqtisadi rifahı artırır.Bu nəzəriyyə günümüzdə Ümumdünya Ticarət Təşkilatı (WTO) və bir çox beynəlxalq ticarət prinsiplərinin əsas nəzəri dayaqlarından biri kimi qəbul olunur.

36.S.Sismondinin nəzəriyyələrində kapitalizmin tənqidi haqqında fikirlərini açıqlayın vo sosial- iqtisadi islahatlar proqramı haqqında məlumat verin.

